***İNKLÜZİV TƏHSİL, KORREKSİYA PEDAQOGİKASI, KORREKSİYA PSİXOLOGİYASI***
***INCLUSIVE EDUCATION, CORRECTIONAL PEDAGOGY, CORRECTIONAL PSYCHOLOGY***
***ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ, КОРРЕКЦИОННАЯ ПЕДАГОГИКА, КОРРЕКЦИОННАЯ ПСИХОЛОГИЯ***

*OUT 373.67*

***Xəyalə Arif qızı Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*İbtidai təhsilin pedaqogikası kafedrasının baş müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0002-6088-0372*
*E-mail: xayalamamedova@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(5).173-179*

# İNKLÜZİV TƏHSİL KONTEKSTİNDƏ UNİVERSAL TƏLİM DİZAYNI

***Khayala Arif Mammadova***
*senior lecturer at the department of Primary education pedagogy at*
*Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in pedagogy*

# UNIVERSAL DESIGN FOR LEARNING IN THE CONTEXT OF INCLUSIVE EDUCATION

***Хаяла Ариф гызы Мамедова***
*старший преподаватель кафедры Педагогики начального образования Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# УНИВЕРСАЛЬНЫЙ ДИЗАЙН ОБУЧЕНИЯ В КОНТЕКСТЕ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

**Xülasə.** Bu məqalədə Universal Təlim Dizaynının (UTD) nəzəri əsasları və onun inklüziv təhsil kontekstində tətbiq imkanları təhlil olunur. Müxtəlif öyrənmə ehtiyaclarına malik öyrənənlər üçün bərabər təhsil imkanlarının yaradılması UTD modelinin əsas məqsədini təşkil edir. Məqalədə UTD-nin əsas prinsipləri, pedaqoji praktikada tətbiqi, beynəlxalq təcrübələr və Azərbaycan təhsil sistemi üçün mümkün tövsiyələr təqdim olunur. Nəticədə, bu modelin inklüziv təhsil mühitinin yaradılmasında səmərəli bir alət olduğu vurğulanır.

Bu məqalədə Universal Təlim Dizaynı (UTD) modelinin inklüziv təhsil kontekstində rolu və əhəmiyyəti araşdırılır. Məqalə UTD-nin əsas prinsipləri və onların müxtəlif təlim ehtiyaclarına malik şagirdlərin təhsilə bərabər çıxışını təmin etmə qabiliyyəti üzərində qurulub. Tədqiqat nəticələri göstərir ki, UTD yanaşması dərs prosesində çeviklik və şaxələndirmə imkanları yaradır, müəllimlərin peşəkar inkişafına müsbət təsir göstərir və təhsilalanların motivasiyasını artırır.

***Açar sözlər:*** *Universal Təlim Dizaynı (UTD), inklüziv təhsil, fərdi ehtiyaclar, tədris strategiyaları, pedaqoji adaptasiya*

**Abstract.** This article explores the theoretical foundations of Universal Design for Learning (UDL) and its potential applications within the context of inclusive education. The primary aim of the UDL model is to ensure equitable learning opportunities for students with diverse educational needs. The article presents the core principles of UDL, its pedagogical implementation, examples from international practice, and recommendations for its adaptation in the Azerbaijani educational context. The findings highlight UDL as an effective framework for fostering inclusive learning environments.

This article explores the role and significance of Universal Design for Learning (UDL) within the context of inclusive education. The study focuses on the core principles of UDL and its capacity to ensure equitable access to education for students with diverse learning needs. Findings indicate that UDL fosters flexibility and differentiation in teaching processes, supports teachers' professional growth, and enhances student engagement.

***Keywords:*** *Universal Design for Learning (UDL), inclusive education, individual needs, teaching strategies, pedagogical adaptation*

**Аннотация.** В статье рассматриваются теоретические основы Универсального дизайна обучения (УДО) и его применение в контексте инклюзивного образования. Модель УДО направлена на создание равных образовательных возможностей для учащихся с различными потребностями. В статье представлены ключевые принципы УДО, практические подходы к его реализации, международный опыт и рекомендации по адаптации модели в системе образования Азербайджана. Подчеркивается эффективность УДО как инструмента для построения инклюзивной образовательной среды.

В данной статье рассматривается роль и значение Универсального дизайна обучения (УДО) в контексте инклюзивного образования. Основное внимание уделяется принципам УДО и их способности обеспечивать равный доступ к обучению для учащихся с различными образовательными потребностями. Результаты исследования показывают, что УДО способствует гибкости учебного процесса, профессиональному развитию педагогов и повышает мотивацию обучающихся.

***Ключевые слова:*** *Универсальный Дизайн Обучения (УДО), инклюзивное образование, индивидуальные потребности, педагогические стратегии, адаптация в обучении*

Müasir təhsil sistemləri inklüzivliyin təmin edilməsini prioritet istiqamətlərdən biri kimi müəyyən edir. Bu yanaşma, fərqli bacarıq və ehtiyaclara malik olan bütün öyrənənlərin keyfiyyətli təhsilə bərabər çıxışını təmin etməyə yönəlmişdir. Ənənəvi təlim modelləri isə bu müxtəlifliyi nəzərə almaqda əksər hallarda məhdudiyyətlər yaşayır. Bu səbəbdən "Universal Təlim Dizaynı" modeli müasir pedaqoji yanaşmalar arasında diqqət çəkir. XXI əsrdə təhsilin əsas prioritetlərindən biri onun inklüzivliyinin təmin olunması, təhsilin hər bir öyrənənin bacarıq, ehtiyac və imkanlarına uyğunlaşdırılmasını nəzərdə tutur. İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün ən müasir yanaşmalardan biri olan Universal Təlim Dizaynı (UTD) modeli geniş şəkildə tədqiq edilməyə başlanmışdır. UTD hər bir öyrənən üçün bərabər öyrənmə imkanları yaradaraq, tədris prosesinin çevik, fərdiləşdirilmiş və əlçatan olmasını təmin edir. Bu model, fərqli təhsil ehtiyaclarına malik olan öyrənənlərin təhsilə inteqrasiyasını və uğurla iştirakını dəstəkləyir. UTD fərqli öyrənmə tərzlərinə və ehtiyaclara uyğunlaşdırılmış təlimin planlaşdırılması və həyata keçirilməsi prosesidir. Bu model təkcə fiziki məhdudiyyətləri deyil, həm də koqnitiv və emosional müxtəliflikləri nəzərə almağı hədəfləyir. UTD, təlimin hər bir öyrənən üçün əlçatan və mənalı olması prinsipinə əsaslanır.

İnklüziv təhsil öyrənənlər arasında mövcud olan fərqləri tanımaqla başlayır. Təlimdə prosesində belə bir yanaşmanın inkişafı bu fərqlərə hörmət edir və onların üzərində qurulur. Bu, sinifdə, müəllimlər otağında, məktəb həyatində və valideynlərlə münasibətlərdə baş verənlərdə köklü dəyişiklikləri əhatə edə bilər. İnklüzivlik öyrənənin yalnız bir aspektinə, məsələn, çatışmazlığına diqqət yetirərsə bu perspektivi nəzərdən qaçırmış olar. Burada önəmli olan qabiliyyətlərə fokslanmaqdır. İnklüziv təhsil hər bir uşağa onun qabiliyyətlərini və məhdudiyyətlərini nəzərə alaraq maksimum dərəcədə uyğun təhsil vermək öhdəliyidir. Bunun üçün Universal Təlim Dizaynından istifadə zəruridir. Təlimdə "universal dizayn" termini hər kəs üçün əlçatan olması nəzərdə tutulan mühitin yaradılmasına aiddir. Adətən əlilliyi olan şəxslərin ehtiyacı ilə əlaqəli olsa da, universal dizayn özündə digər aspektləri də ehtiva edir.

Universal Təlim Dizaynı nədir? Universal Təlim Dizaynı (UTD), müxtəlif qabiliyyətlərə və öyrənmə ehtiyaclarına malik bütün öyrənənlər üçün təlimin əvvəlcədən planlaşdırılaraq əlçatan və iştirakçı olmasını təmin edən bir pedaqoji yanaşmadır.

BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına əsasən universal dizayna "əşyalar, şərait, proqramlar və xidmətlərin adaptasiya və ya xüsusi dizayn zərurəti olmadan bütün insanlar üçün istifadəyə maksimum dərəcədə yararlı şərait" kimi tərif verilir (2). "Buna görə də universal dizayna əlilliyi

olan şəxslər üçün müvafiq şərait yaradan yardımçı cihazlar, digər dəstəkləyici sistemlər və tənzimləmələr daxildir. Universal dizayn dedikdə inklüziv təhsilə xas vacib məqam sinifdə şagirdlər üçün təmin edilən təlim mühitidir" (6, s.26).

Hər bir müəllim sinfindəki öyrənənlərin müxtəlif öyrənmə tərzlərinin olduğunu bilməlidir. Bunu nəzərə alaraq qarşıya qoyulan təlim məqsədinə çatmaq üçün müxtəlifliyi təmin edəcək əlçatanlılıq şəraiti yaratmaq şərtdir. Bu nöqteyi-nəzərdən Universal Təlim Dizaynı köməyimizə çatır və hər kəs üçün əlçatanlılığı təmin edir.

Universal Təlim Dizaynı konsepti ilk dəfə ABŞ-da Harvard Universiteti nəzdində fəaliyyət göstərən CAST (*Center for Applied Special Technology*) təşkilatı tərəfindən inkişaf etdirilmişdir. Bu model, təhsil mühitində müxtəlif öyrənmə tərzlərinə sahib olan fərdlərə eyni səviyyədə təlim imkanları təqdim etmək məqsədi daşıyır (8).

UTD əsas etibarilə, təlimin planlaşdırılması mərhələsindən başlayaraq fərqliliyi nəzərə alan, inklüziv və proaktiv yanaşmadır. Universal Təlim Dizaynı təlim prosesini elə planlaşdırmaq və həyata keçirməkdir ki, bütün öyrənənlər (o cümlədən fiziki, eşitmə, görmə və intellektual fərqlilikləri olanlar) ondan bərabər şəkildə faydalana bilsinlər. UTD əlçatanlıq, çeviklik və fərdi ehtiyaclara uyğunluq prinsiplərinə əsaslanır.

UTD modelinə görə, effektiv təlim prosesi üç əsas *prinsipə* əsaslanmalıdır:

**1.** Məzmunun təqdimatında çoxşaxəlilik:

- Məlumatlar müxtəlif üsullarla təqdim olunur (vizual, audio, mətn və s.).
- Fərqli öyrənmə tərzlərini və sensor ehtiyaclarını nəzərə alır.

Öyrənənlərin informasiyanı qəbuletmə tərzləri fərqli ola bilər. Bu səbəbdən məzmun vizual, eşitmə, kinestetik və interaktiv üsullarla təqdim olunmalıdır.

**2.** İfadə və iştirakda seçim imkanı:

- Öyrənənlərə maraqlı və mənalı fəaliyyətlər təqdim edilir.
- Daxili motivasiya gücləndirilir, seçim azadlığı verilir.

Öyrənənlər mənimsədiklərini müxtəlif yollarla ifadə edə bilməlidir: yazılı cavab, şifahi təqdimat, layihə işi və s.

**3.** Motivasiya və öyrənməyə cəlbetmədə müxtəliflik:

- Öyrənənlər öz biliklərini müxtəlif yollarla ifadə edə bilər (şifahi, yazılı, texnologiya ilə və s.).
- Qiymətləndirmə üsulları da çevik olur.

Öyrənənlərin maraq dairəsi və daxili motivasiyası fərqli olduğu üçün, onların marağını çəkən, uyğun çətinlik səviyyəsində və məqsədyönlü fəaliyyətlər təmin edilməlidir. Bu prinsipial yanaşma, sadəcə təhsildə xüsusi ehtiyacı olan uşaqlar üçün deyil, ümumilikdə bütün öyrənənlər üçün təhsili daha funksional və əlçatan edir. UTD, yalnız adaptasiya deyil, başlanğıcdan inklüziv dizayn anlayışına əsaslanır. Bu isə onu fərdi ehtiyaclara cavab verən, lakin ayrıseçkilik etməyən bir modelə çevirir.

Beyin fəaliyyətinin fərqliliyini qəbul edən UTD modeli, "beyin müxtəlifliyi" anlayışını təhsildə nəzərə almağı vacib hesab edir (8).

Beləliklə, UTD həm inklüzivliyin təmin edilməsinə, həm də keyfiyyətli tədrisin gerçəkləşməsinə xidmət edir.

İnklüziv təhsil anlayışı, bütün uşaqların, o cümlədən müxtəlif bacarıq səviyyəsinə, mədəni və sosial mənşəyə, fiziki və intellektual fərqliliyə malik şagirdlərin birgə və bərabərhüquqlu şəkildə təhsil almasını nəzərdə tutur. Lakin bu yanaşmanın təcrübədə həyata keçirilməsi yalnız hüquqi mexanizmlərlə deyil, pedaqoji yanaşmalarla da birbaşa əlaqəlidir. Bu kontekstdə Universal Təlim Dizaynı inklüziv təhsilin tətbiqini sadələşdirən və gücləndirən əsas modellərdən biri kimi çıxış edir.

UTD-nin inklüziv təhsildə tətbiqi bir neçə istiqamətdə təhsil maneələrinin qarşısını alır:

- Fiziki maneələrin aradan qaldırılması: UTD fiziki əlçatanlığı yalnız mühit baxımından deyil, eyni zamanda tədris resursları və qiymətləndirmə metodlarının adaptasiyası ilə də təmin edir;
- Koqnitiv və dil baryerlərinin azaldılması: UTD-nin çoxşaxəli təqdimat üsulları öyrənmə çətinlikləri, dil baryeri və ya diqqət pozuntusu olan şagirdlərin dərsi mənimsəməsini asanlaşdırır. Məsələn, vizual qrafiklər, audio izahlar və sadələşdirilmiş mətnlər koqnitiv mühitə uyğunlaşdırılmış yanaşmalardır;
- Sosial-emosional iştirakın gücləndirilməsi: UTD öyrənənlərin özünü tanıma, qəbul edilmə və aktiv iştirak hisslərini dəstəkləyir. Bu isə, xüsusilə, təcrid riski olan və sosial cəhətdən həssas qruplar üçün kritik əhəmiyyət daşıyır.

Universal Təlim Dizaynının sinifdə tətbiqi pedaqoji fəaliyyətin planlaşdırılması və icrasının bütün mərhələlərində inklüzivlik prinsipinə əsaslanır. Bu yanaşma müəllimlərin təkcə tədris materiallarını deyil, həm də fəaliyyətləri, qiymətləndirməni və sinif idarəçiliyini öyrənənlərin fərdi ehtiyaclarına uyğunlaşdırmasını nəzərdə tutur.

1. **Dərs planlaşdırılmasında UTD**

Müəllimlər dərs planlarını hazırlayarkən aşağıdakı prinsipləri rəhbər tutmalıdırlar:

- Məzmunun təqdimində fərqliliklər: Vizual slaydlar, audio izahlar, qrafiklər, real həyat nümunələri və ya əllə toxunula bilən materiallar təqdim edilə bilər. Məsələn, riyaziyyat dərsində “fraksiyalar” mövzusunu anlamaqda çətinlik çəkən şagirdlər üçün rəqəmlərlə yanaşı real obyektlər (meyvələr, hissələrə bölünən əşyalar) istifadə edilə bilər;
- İfadə yollarında seçim azadlığı: Öyrənənlərin mənimsədiklərini təqdim etməsi üçün alternativ yollar təklif olunmalıdır – təqdimat, rəsmlə izah, videobloq, yazılı esse və ya praktiki layihə. Bu, fərqli güclü tərəflərin ifadəsinə şərait yaradır;
- Fəal iştirak və maraq üçün müxtəlif yanaşmalar: Təlimə oyunlar, müzakirələr, problem həllinə əsaslanan tapşırıqlar, dramatik canlandırmalar və simulyasiyalar daxil edilməlidir. Bu, sinifdə fərqli motivasiya səviyyəsinə malik şagirdlərin tədrisə cəlb olunmasını artırır.

2. **Qiymətləndirmənin adaptasiyası**

UTD modeli formativ və summativ qiymətləndirmənin çevik və fərdiləşdirilmiş olmasını təşviq edir. Məsələn, şagirdin biliklərini testlə yanaşı layihə təqdimatı və ya portfoliolar vasitəsilə də qiymətləndirmək mümkündür. Bu, qiymətləndirmədə ayrı-seçkiliyin qarşısını alır və öyrənmənin daha obyektiv dəyərləndirilməsinə imkan yaradır.

3. **Rəqəmsal alətlərdən istifadə**

Rəqəmsal texnologiyalar UTD-nin prinsiplərini praktikada həyata keçirmək üçün güclü alət rolunu oynayır. İnteqrasiya olunmuş platformalar (məsələn, Google Classroom, Padlet və s.) müəllimlərə məzmunu fərdiləşdirmək və əhatəliliyi təmin etmək imkanı yaradır. Eyni zamanda oxu çətinliyi olan öyrənənlər üçün mətn oxuyan proqramlar və ya alt yazılarla təchiz olunmuş video materiallar səmərəli dəstəkdir.

Müasir təhsilin qarşısında duran ən böyük çağırışlardan biri inklüzivliyin təmin olunmasına sistemli cavab təqdim edən UTD modeli təlimin başlanğıc mərhələsindən etibarən müxtəlif öyrənən ehtiyaclarını nəzərə alaraq fərdi fərqliliyi bir maneə kimi deyil, imkan kimi dəyərləndirir. Bu isə yalnız xüsusi ehtiyacı olan şagirdlər üçün deyil, ümumi təhsil sistemində tədris keyfiyyətinin yüksəldilməsi baxımından da strateji əhəmiyyət daşıyır.

Müəllimlər tərəfindən dərsin planlaşdırmasında şagirdlərin maraqları, güclü tərəfləri, ehtiyacları və dərsin məzmununu nəzərə alıb dəyişikliklər edərək yanaşması ideal formadır. Müəllimlər öyrənmə tərzlərinin müxtəlifliyini nəzərə alaraq dərsi planlaşdırmalıdır. Bu təcrübə əlilliyi olan şagirdlər üçün müvafiq olan və bütün şagirdlərin ehtiyaclarını təmin edən dərsləri inkişaf etdirir. Müəllimlər inklüziya və cəlb olunmanı asanlaşdırmaq üçün mədəni mühit və şagirdlər ilə məktəb arasında aydın əlaqələri təmin etməyi də planlaşdırmalıdır (6, s.36).

Azərbaycan təhsil sistemində də inklüzivlik üçün hüquqi baza formalaşmaqda olsa da, pedaqoji baxımdan sistemli yanaşma ehtiyacı qalmaqdadır. Bu səbəbdən UTD kimi qabaqcıl pedaqoji modellərin tətbiqi təhsil siyasətinin keyfiyyətə yönəlmiş transformasiyasında mühüm yer tuta bilər.

**Tədqiqat.**

1. **Tədqiqatın məqsədi və aktuallığı**

Müasir dövrdə təhsilin əsas vəzifələrindən biri onun inklüzivliyini təmin etməkdir. Bütün şagirdlərin fərdi ehtiyaclarının nəzərə alındığı və bərabər təhsil imkanlarına malik olduğu bir sistem qurmaq cəmiyyətin sosial ədalət prinsiplərinə əsaslanan inkişafını dəstəkləyir. Bu kontekstdə Universal Təlim Dizaynı (UTD) modeli inklüziv təhsilin həyata keçirilməsində innovativ və praktik yanaşmalardan biri kimi çıxış edir.

Tədqiqatın məqsədi inklüziv təhsil mühitində UTD-nin tətbiq imkanlarını və təlim prosesinə təsirini nəzəri və praktik aspektlərdən təhlil etmək, müəllimlərin bu yanaşmaya münasibətini, məktəb infrastrukturunun uyğunluğunu və təhsilalanların iştirak səviyyəsini empirik materiallar əsasında qiymətləndirməkdir.

Bu məqsədlə aşağıdakı suallar rəhbər tutulmuşdur:

- UTD prinsipləri hazırkı təhsil sistemində nə dərəcədə tətbiq edilir?
- Müəllimlərin və məktəb rəhbərlərinin UTD-yə münasibəti və hazırlıq səviyyəsi necədir?
- UTD şagirdlərin dərsə inteqrasiyasına və nailiyyətlərinə necə təsir göstərir?
- Məktəb mühiti və resursları bu modelin tətbiqi üçün yetərlidirmi?

**2. Tədqiqatın metodologiyası**

Tədqiqat keyfiyyət əsaslı metodologiya çərçivəsində aparılmışdır. Keyfiyyət metodları tədqiqatın məqsədinə daha uyğun olduğu üçün müəllimlərin, valideynlərin və təhsil rəhbərlərinin baxışlarını daha dərindən anlamağa imkan vermişdir.

**Məlumat toplama üsulları:**

- Müsahibələr (12 müəllim, 3 məktəb direktoru, 2 psixoloq)
- Fokus qrup müzakirələri (18 valideyn)
- Dərs müşahidələri (4 məktəbdə 8 inklüziv sinifdə aparılıb)
- Sənəd analizi (kurikulum, dərs planları, təlim resursları)

**Məkan və iştirakçılar:** Tədqiqat Bakı şəhəri və ətraf rayonlarda fəaliyyət göstərən 5 dövlət ümumi təhsil məktəbində həyata keçirilmişdir. Seçilmiş məktəblərin hamısında inklüziv siniflər mövcuddur. İştirakçılar müxtəlif fənn və yaş qruplarında fəaliyyət göstərən pedaqoqlardır.

**Təhlil üsulu:** Toplanan məlumatlar tematik kodlaşdırma metodu ilə təhlil olunmuş, əsas motivlər çıxarılaraq kateqoriyalar üzrə qruplaşdırılmışdır. Kodlaşdırma prosesində təkrar mövzuların tezliyi və iştirakçılar tərəfindən vurğulanan əsas məqamlar əsas götürülmüşdür.

**3. Tədqiqatın nəticələri**

**Müəllimlərin UTD-yə hazırlıq səviyyəsi**. Müsahibələrin və müşahidələrin nəticələri göstərdi ki, respondentlərin əksəriyyəti UTD anlayışına səthi şəkildə bələddir. UTD prinsipləri ilə bağlı formal bilik olsa da, onların dərs planlarında sistemli şəkildə əks etdirilməsi müşahidə olunmur. Müəllimlər UTD-ni daha çox "vizual vəsaitlərlə dərs keçmək" və ya "tapşırıqları fərqləndirmək" kimi dar mənada başa düşürlər. Bu isə UTD-nin mahiyyətinə və strukturlaşdırılmış pedaqoji çərçivəsinə ziddir.

**Tədris mühitinin uyğunluğu**. UTD-nin əsas tələblərindən biri çevik və fərdi ehtiyaclara uyğunlaşdırılmış təlim mühitidir. Lakin məktəblərdə fiziki məkanların (partaların düzümü, hərəkət imkanları, texniki vasitələr) bu modelə uyğunlaşdırılması ciddi məhdudiyyətlərlə üzləşir. Yalnız 2 məktəbdə interaktiv texnologiyaların istifadəsi mümkündür. Əksər siniflərdə isə köhnə avadanlıq, dar sinif otaqları və resurs çatışmazlığı müşahidə olunmuşdur. **UTD-nin tətbiqi və şagirdlərin iştirakı**. UTD prinsiplərinin (xüsusən təqdimatın müxtəlif formaları və qiymətləndirmə üsullarının çevikliyi) tətbiq olunduğu hallarda şagirdlərin dərsə marağı və aktivliyi nəzərəçarpacaq dərəcədə artır. Məsələn, müəllimlər tapşırıqları yazılı və vizual təqdim etdikdə və ya qiymətləndirməni yalnız testlə deyil, təqdimat, poster və ya qrup işi ilə əvəz etdikdə şagirdlərin fəallığı yüksəlmişdir. Xüsusilə öyrənmə çətinliyi olan şagirdlər üçün bu yanaşma adaptiv və funksional təsir göstərmişdir.

**Psixoloji və sosial amillər**. Fokus qruplar zamanı valideynlər qeyd etmişlər ki, UTD-nin tətbiq olunduğu dərslərdə uşaqlar özlərini daha rahat və qəbul olunmuş hiss edirlər. Bu isə inklüziv təhsil mühitində şagirdlərin emosional rifahı və məktəbə bağlılığı üçün mühüm göstəricidir. Digər tərəfdən, məktəb rəhbərləri qeyd etmişlər ki, müəllimlərin əlavə metodiki yüklənməsi və resurs azlığı UTD-nin geniş tətbiqini əngəlləyir.

**4. Müzakirə və təhlil**

Tədqiqatın nəticələri beynəlxalq ədəbiyyatda qeyd olunanlarla üst-üstə düşür. Məsələn, Rose və Meyer (2002) tərəfindən təqdim edilən UTD modelində təlimin adaptivliyi və şagirdlərin seçim azadlığı əsas faktor kimi vurğulanır. Eyni zamanda, Azərbaycan kontekstində UTD-nin tətbiqinə dair normativ çərçivə hələ tam oturuşmadığından, təlim prosesində bu yanaşma epizodik xarakter daşıyır.

Bu nəticələr göstərir ki, UTD-nin inklüziv təhsildə rolu yüksək olsa da, onun tətbiqi üçün yalnız pedaqoji deyil, sistem səviyyəsində dəyişikliklərə ehtiyac vardır: təlim planlarının çevikliyi, müəllim hazırlığı, texniki resurslar və rəhbərlik dəstəyi kompleks şəkildə təmin olunmalıdır.

**5. Tədqiqatın məhdudiyyətləri**

Tədqiqat yalnız dövlət məktəblərini əhatə etdiyindən özəl və alternativ təhsil müəssisələri istisna olunub.

- İştirakçı sayı məhdud olduğundan nəticələrin ümumiləşdirilməsi ehtiyatlı yanaşma tələb edir.
- Şagirdlərin özlərinin birbaşa baxışları daxil edilməyib, bu gələcək tədqiqatlar üçün imkan yaradır.

**Nəticə.** Tədqiqatın nəticələri sübut edir ki, Universal Təlim Dizaynı inklüziv təhsilin effektivliyini artırmaq üçün mühüm vasitədir. Bu yanaşma yalnız təhsildə xüsusi ehtiyacı olan şagirdlər üçün deyil, ümumilikdə müxtəlif öyrənmə tərzinə malik bütün şagirdlər üçün faydalıdır. Onun uğurlu tətbiqi üçün isə sistemli müəllim hazırlığı, məktəb infrastrukturunun müasirləşdirilməsi və dövlət səviyyəsində metodik dəstəyin gücləndirilməsi vacibdir.

UTD modeli inklüziv təhsilin praktikaya uğurla inteqrasiyası üçün əlverişli çərçivə təqdim edir. Tədqiqat nəticəsində aşağıdakı nəticələr və tövsiyələr irəli sürülür:

- Müəllimlər üçün UTD-nin fəlsəfəsi və tətbiq mexanizmlərinə dair sistemli ixtisasartırma proqramları hazırlanmalıdır;
- Təhsil müəssisələrində təlim mühitinin texniki və metodik baxımdan UTD prinsiplərinə uyğunlaşdırılması təmin olunmalıdır;
- Kurikulum sənədlərində və dərs planlarında çeviklik və çoxformatlı qiymətləndirmə mexanizmləri genişləndirilməlidir;
- İdarəedicilər və psixoloji xidmət nümayəndələri UTD-nin effektiv tətbiqinə nəzarət edən funksional dəstək mexanizmləri qurmalıdırlar.

UTD-nin əsas üstünlükləri aşağıdakılardır:

- Müxtəlif öyrənmə tərzlərini nəzərə alması və fərdi yanaşmanı təşviq etməsi;
- Fiziki, koqnitiv və sosial maneələrin tədris prosesindən əvvəl nəzərə alınaraq aradan qaldırılması;
- Qiymətləndirmə və iştirak imkanlarında seçim azadlığı təmin etməsi;
- Rəqəmsal vasitələrin potensialını inklüzivliyin lehinə istifadəsi.

Lakin bu modelin uğurla tətbiqi üçün yalnız konseptual bilik yetərli deyil. Praktik səviyyədə effektivliyə nail olmaq üçün aşağıdakı **tövsiyələr** vacibdir:

1. Müəllim hazırlığı: UTD-nin prinsiplərini və tətbiq yollarını əhatə edən təlimlər pedaqoqların inklüziv düşüncə tərzini formalaşdırmalıdır. Bu həm ali təhsil proqramlarında, həm də xidmətdaxili inkişaf proseslərində yer almalıdır.
2. Tədris materiallarının adaptasiyası: Mövcud dərs resurslarının UTD prinsipinə uyğunlaşdırılması və yeni, diferensiallaşdırılmış məzmunların hazırlanması üçün müəllimlərə metodik dəstək göstərilməlidir.
3. Təhsil siyasətində dəstək: UTD-nin tətbiqini təşviq edən hüquqi və institusional çərçivələr yaradılmalı, məktəblər bu yanaşmaya keçid üçün maddi-texniki və psixoloji resurslarla təmin olunmalıdır.
4. Beynəlxalq təcrübələrin öyrənilməsi: Kanada, Finlandiya və ABŞ kimi ölkələrin UTD tətbiqi ilə bağlı təcrübələri Azərbaycanda kontekstual uyğunlaşdırmalarla inteqrasiya oluna bilər.

Nəticə etibarilə, Universal Təlim Dizaynı təhsildə inklüzivliyin təkcə hüquqi deyil, həm də didaktik əsaslarını təşkil edir. Bu model vasitəsilə hər bir öyrənən üçün “eyni deyil, ədalətli” təhsil mühiti qurmaq mümkündür. Belə bir yanaşma isə yalnız tədris nəticələrinin deyil, bütövlükdə cəmiyyətin humanist əsaslarının möhkəmlənməsinə xidmət edir.

**Problemin aktuallığı.** Müasir dövrdə təhsilin əsas çağırışlarından biri fərqliliklərin nəzərə alındığı və hər bir öyrənənin ehtiyaclarına uyğunlaşdırılmış öyrənmə mühitlərinin qurulmasıdır. İnklüziv təhsilin məqsədi yalnız əlilliyi olan şəxslərin inteqrasiyası ilə məhdudlaşmır, eyni zamanda müxtəlif öyrənmə tərzləri, fərqli dil və sosial-mədəni mənşəyə malik şagirdlər üçün bərabər təhsil imkanlarının yaradılmasını da əhatə edir. Ənənəvi təlim modelləri bu ehtiyaclara tam cavab vermədiyi üçün daha çevik və inklüziv yanaşmalara ehtiyac artır. Bu kontekstdə Universal Təlim Dizaynı (UTD) modeli pedaqoji adaptasiyanı ön plana çəkərək bütün öyrənənlər üçün əlçatan, iştirakçı və mənalı tədris mühiti yaratmağı qarşısına məqsəd qoyur. Azərbaycan təhsil sistemində də inklüzivlik üzrə hüquqi çərçivənin mövcudluğu praktik mexanizmlərlə tamamlanmadığı üçün, UTD modelinin tətbiqi məsələsi öz aktuallığını qoruyur.

**Problemin elmi yeniliyi.** Universal Təlim Dizaynı konsepti beynəlxalq elmi müstəvidə geniş şəkildə tədqiq edilsə də, onun Azərbaycan təhsil kontekstində empirik şəkildə araşdırılması çox məhdud olmuşdur. Bu tədqiqat məhz UTD-nin yerli məktəb təcrübələrində necə qəbul edildiyini, tətbiq olunduğunu və hansı çətinliklərlə üzləşdiyini sistemli şəkildə araşdıran ilk nümunələrdəndir. Elmi yenilik ondan ibarətdir ki, müəllimlərin, rəhbərlik nümayəndələrinin və valideynlərin UTD-yə münasibəti

təhlil olunmaqla yanaşı, real sinif müşahidələri və sənəd analizləri vasitəsilə nəzəri biliklərin praktik əks olunma səviyyəsi də ölçülmüşdür. Eyni zamanda bu araşdırma UTD modelinin inklüziv təhsildə nə dərəcədə transformativ gücə malik olduğunu yerli kontekstdə ilk dəfə dərinliklə göstərir.

**Problemin praktik əhəmiyyəti.** Araşdırmanın nəticələri inklüziv təhsil sahəsində çalışan müəllimlər üçün praktik tövsiyələr təqdim edir. UTD modelinin tətbiqi sayəsində təlim materiallarının fərdiləşdirilməsi, qiymətləndirmə üsullarının çevikləşdirilməsi və öyrənənlərin motivasiyasının artırılması kimi nəticələr əldə oluna bilər. Bu isə birbaşa dərs keyfiyyətinə, şagirdlərin nailiyyətlərinə və məktəb mühitində sosial inteqrasiyaya müsbət təsir göstərir. Məqalədə müəllim hazırlığının sistemləşdirilməsi, məktəb resurslarının təkmilləşdirilməsi və təlimin planlaşdırılmasında UTD prinsiplərinə əsaslanmaq kimi təqdim olunan tövsiyələr təhsildə islahatlara yön verə biləcək praktik təkliflərdir. Beləliklə, bu tədqiqat pedaqoji sahədə çalışanlar üçün yol göstərici rol oynaya bilər.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). -Bakı, 2006.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. 2018–2024-cü illərdə sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. Bakı, 2017.
3. Əhmədova G. İnklüziv təhsil mühitinin yaradılmasında müəllimlərin rolu // Azərbaycan Müəllimlər İnstitutu Elmi Əsərlə,. -2020. №4. -s. 45–52.
4. İsmayılov R. Təhsildə universal dizayn: müasir yanaşmalar və tətbiq imkanları // Təhsil və Zaman. -2021. №3. -s. 19–27.
5. Quliyeva S. İbtidai siniflərdə inklüziv tədris mühitinin təşkili yolları // Təhsil Problemləri. -2019. №2. -s. 63–70.
6. https://www.tipii.edu.az/noduploads/document/nkluziv-sinifda-talimin-taskili-oxu-materiali.pdf
7. (Son baxıldığı tarix: 10/06/2025).
8. United Nations. Convention on the Rights of Persons with Disabilities. -2006. URL: http://www.un.org/disabilities/documents/convention/convoptprot-e.pdf (baxış tarixi: 10.06.2025).
9. CAST. Universal Design for Learning Guidelines Version. -2018. URL: https://udlguidelines.cast.org (baxış tarixi: 10.06.2025).
10. Meyer A., Rose D.H., Gordon D. Universal Design for Learning: Theory and Practice. CAST Professional Publishing, -2014.
11. Rose D.H., Meyer A. Teaching Every Student in the Digital Age: Universal Design for Learning. ASCD, -2002.

**Redaksiyaya daxil olub:** 17.09.2025